Xalq qəzeti 18 yanvar 2023-cü il, çərşənbə



# Xurşidbanu Natəvan özbəkdilli "Wikipediya"da

**Şuşa şəhərinin 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Qarabağ xanlığının sonuncu varisi Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan haqqında "Wikipediya" Beynəlxalq Elektron Ensiklopediyasında özbək dilində "Xurshidbonu Notavon" adlı bölmə istifadəyə verilib.**




Mədəniyyət Mərkəzinin "Wikipediya" heyəti tərəfindən yaradılan bölmədə şairin həyatı və yaradıcılığı, Azərbaycan ədəbiyyatına və incəsənətinə verdiyi töhfələr, ictimai fəaliyyəti və s. məlumatlar yer alıb.

Bölmədə XIX əsr Azərbaycan bədii fikrinin görkəmli simalarından biri olan Xurşidbanu Natəvan parlaq istedada malik şair, habelə Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin iz qoymuş bir şəxsiyyət kimi təqdim edilir.

Xurşidbanu Natəvan haqqında səhifə 12 bölmədən ibarətdir və hər bölmədə müvafiq olaraq şairin həyatı, yaradıcılığı, ailə şəcərəsi, əsərləri, ictimai fəaliyyəti və s. haqqında məlumatlar verilir. Misal üçün, səhifənin "Meros" (İrsi) adlı bölməsində şairin adına küçə, klub, kitabxana, məktəb yaradılması, Xan qızının əlyazmaları, şəxsi geyim və əşyalarının nadir eksponat kimi arxiv və müzeylərimizdə saxlanılması əks olunub. Qeyd edilir ki, Xurşidbanu Natəvanın Bakı şəhərində heykəli, Şuşada büstü, Ağdamda qəbirüstü abidəsi, Heydər Əliyev Fondunun dəstəyilə Belçika Krallığının Vaterloo şəhərində abidəsi qoyulub.

Səhifədə 2022-ci ildə Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı da yer alıb.

Bölmədə Şuşada dövrün ədəbi mühiti və Xurşidbanu Natəvanın burada yaratdığı "Məclisi-üns" haqqında geniş materiallar öz əksini tapıb. Burada məlumat verilir ki, XIX əsrdə bölgələrdə poetik məclislərin yaranması geniş vüsət alıb. Belə ki, Bakı, Naxçıvan, Şamaxı, Lənkəran, Quba və Gəncədə poetik məclislər yaranıb. Şuşada isə iki belə məclis vardı ki, onlardan biri "Məclisi-üns" , digəri isə Mir Möhsün Nəvvabın yaratdığı "Məclisi-fəramuşan"dır.

Qeyd edək ki, Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə ilk dəfə olaraq 2022-ci ildə "Məclisi-fəramuşan" poeziya məclisi bərpa olunub, Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə Şuşada tədbirlər keçirilib.

Bölmədə Xurşidbanu Natəvanın şeirləri, haqqında çap olunmuş kitabların siyahısı da öz əksini tapıb. Burada məlumat verilir ki, AMM tərəfindən Xurşidbanu Natəvanın şeirləri özbək dilinə tərcümə olunaraq nəşr edilib.

"Wikipediya" Elektron Ensiklopediyasında Xurşidbanu Natəvan haqqında özbək dilində məlumatlarla https://uz.wikipedia.org/wiki/Xurshidbonu_Notavon linkində tanış olmaq mümkündür.

**Qulu KAZIMOV**

**Daşkənd**